# Baş katib Ermənistanın müharibə cinayətləri barədə məlumatlandırılıb

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq ilə görüşüb.**

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, görüşdə S.Əliyeva qonağa mandatı, insan hüquq və azadlıqlarının təmini və müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyəti barədə ətraflı məlumat verib.

Nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa toxunan S.Əliyeva BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, o cümlədən ixtisaslaşmış qurumları ilə sıx əlaqələr barədə geniş məlumat verib. Ombudsman təsisatın BMT-nin İnsan Hüquqları Şurası (İHŞ) tərəfindən həyata keçirilən Universal Dövri İcmal prosesində fəal iştirak etdiyini, dövri məruzələrin təqdim olunduğunu vurğulayıb.

Səbinə Əliyeva "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklərdən danışıb, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Uşaq hüquqları haqqında" konvensiyaların müddəalarının həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını yerinə yetirdiyini bildirib.

O, Ermənistanın ölkəmizə qarşı nifrət və müharibə cinayətləri ilə bağlı xüsusi hesabatların hazırlanaraq beynəlxalq təşkilatlara, xarici ombudsman və milli insan hüquqları institutlarına göndərildiyini söyləyib.

Səbinə Əliyeva növbədənkənar prezident seçkiləri ərəfəsində Ombudsman Aparatı və Mərkəzi Seçki Komissiyası tərəfindən vətəndaşların seçki hüququnun təmini mövzusunda hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunduğunu vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 2 fevral, № 22.- S.2.